*Aqil ABBAS*

# ALLAHI QATİL EDƏNLƏR

**Detektiv roman**

**(Əvvəli ötən saylarımızda)**

***

- Ona bu döşlərimdən süd vermişəm. Mənim oğlum xain ola bilməz, bu döşlərimi kəsib ataram.

Bu ağır zərbədən ürəyi parça-parça olmuş Ata başını itirmişdi, bilmirdi ki, nə etsin, kimə nə desin, kimi necə sakitləşdirsin, ölüsünün dərdini çəksin, yoxsa dirilərinin.

Böyük Qardaş hamının gözü qabağında əlini qəbrə basıb qardaşının intiqamını alacağına, bu qanı yerdə qoymayacağına and içmişdi. Amma intiqamını kimdən alacaqdı, qanı tökən də qardaşıydı, qanı tökülən də.

Böyük Qardaşın içdiyi and ən çox Atanı qorxudurdu: cavan idi, beyniqandı, öz əlləri ilə qurd ürəyi yedirtdiyi oğul sözü boşuna deməzdi. Bir oğul torpağın altında, biri də bu tökülən baiskarının kim olduğunu bilmədən, kiməsə silah çəksin, kimisə vursun, əlini hansı bir günahsızın qanına batırsın və o da getsin. İndi onu dirilərnin dərdi daha çox götürmüşdü, bircə an da olsun Böyük Qardaşı gözdən qoymaq istəmirdi.

Gündə bəlkə əlli dəfə zəng edirdi.

Böyük Qardaş əsəbləşirdi:

- Ata, qoyassan işləyim?

Bir tərəfdən də Ana:

- Yox, mənim oğlum xain ola bilməz!

- Ay arvad, bir özünə gəl, kim sənin oğluna xain deyir?

- Xain necə olur?! Əsgər yoldaşlarını öldürüb? Öldürüb! Tabutunu bayrağa sarımadılar? Sarımadılar! Qəbrinin üstə yaylım atəşi açmadılar? Açmadılar! Day xain belə olur də! Kəndin içinə çıxa bilmirəm.

Böyük Qardaş:

- Ana, sənin oğlun, mənim qardaşım xain ola bilməz. Qardaşım heç toyuq başı da kəsməmişdi. Yadına düşür, yanına getmişdik. Dedi yıxılmışam, yalan deyirdi, döymüşdülər. Görünür indi də nə isə olub, onu elə həddə çatdırıblar ki, əlini silaha atıb. Öyrənəcəm.

Ana:

- Öyrən, oğul! Əgər bunu öyrənməsən, qardaşıyın qanın yerdə qoysan, südüm sənə haram olsun!

Ata əlindəki stəkanı yerə çırpdı:

- Bəsdir, ay arvad! Nə axmaq-axmaq danışırsan? Qoy öldüyümüz yerdə ölək də! Bunu da qatil eləmək istəyirsən? Biri azlıq eləyir? Hökumət araşdırır, qoyun bir istintaq başa çatsın də. Bilək nə var, nə yox. Əgər mənim oğlumu bu faciəyə vadar edən olubsa, nə o əsgərlərin, nə də oğlumun qanını mən özüm yerdə qoymayacam! - dedi və gəlib durdu Böyük Qardaşın qarşısında: - And iç qardaşıyın gorunakı sən bu işə qarışmayacaqsan.

Böyük Qardaş udqundu, gah anasına, gah atasına baxdı.

Ata:

- Demədim, and iç?!

Ana:

- And içmə oğul, qardaşıyın gorun yandırma.

- İtin qızı, kəs səsini! - dedi Ata və çevrilib bir yastığa baş qoyduqları gündən bəri ilk dəfə xanımına tərs bir sillə vurdu.

Ana yerə çöküb hönkürdü, Böyük Qardaş dodağını dişləyib otaqdan çıxdı. Ata da xanımının qarşısında oturdu və onun başını sinəsinə sıxıb ağlayaağlaya dedi:

- Ağla, ağla qoy ürəyin boşalsın!

***

Darvaza elə möhkəm döyülürdü ki, Ata çıxdı eyvana:

- Ay kimsən, gir içəri.

- İt bağlıdı? - qonşunun uşağı idi.

- Ay oğul, bizim heç itimiz yoxdu.

Uşaq girdi həyətə, yüyürmüşdü deyə təngənəfəs idi.

- Nə olub, ay oğul?

- Əmi, qəbrin üstündə bir mayor dayanıb.

Müstəntiq kəndə çatanda əvvəlcə ölənə hörmət əlaməti olaraq qəbir üstünə getdi. Qəbrin yerini də indicə qaçıb xəbər verən uşaqdan soruşmuşdu.

- Nə mayor? Mayor kimdi?

- Mayor də, nə bilim?

Ata həyətdən çıxıb yendi qəbiristanlığa, qonşunun uşağı da arxasınca, Müstəntiqlə də qəbiristanlığın ağzında rastlaşdılar...

Oturmuşdular həyətdə. Müstəntiqin xahişi ilə Ata zəng edib Böyük Qardaşı da evə çağırmışdı.

Müstəntiq çox gözəl başa düşürdü ki, ağır bir faciəni yaşayan ailə üzvləri ilə söhbət o qədər də asan olmayacaq.

- Oğul, mənim oğlum Vətən xaini ola bilməz! - Ana yaylığının ucu ilə dolmuş gözlərini sildi.

- Kim deyir ki, sizin oğlunuz Vətən xainidir?

Ata qırıla-qırıla dodaqlarını gəmirərək dedi:

- Vətən xaini necə olur, rəis? Mənim oğlum əsgər yoldaşlarını güllələyib. Düşmənə atılacaq gülləleri qardaşlarına atıb. Axı bu necə ola bilər?

Müstəntiq əlini qoydu Ananın sümükləri çıxmış əlinin üstə:

- Ay ana, mən də elə bunu araşdırmaq üçün burdayam. İstəyirsiz əsl həqiqəti üzə çıxarım, siz də mənə kömək edin.

Ata:

- Mənim oğlum çox ağır bir cinayət törədib. İnanın mənə, məni yandıran oğlumun ölümü deyil, indən belə çəkəcəyimiz əzablar, işgəncədi, xalqın töhmətidi. Mənim oğlum beyniqan cavan deyildi, hüquqşünasıydı, elmi iş üzərində işləyirdi. O belə bir ağır cinayət törədə bilməzdi. Burda nə isə bir amma var, səbəb var. Amma heç kim bununla maraqlanmır.

Müstəntiq:

- Siz oğlunuzla axırıncı dəfə nə vaxt görüşmüsüz?

- Əsgərliyə gedəndə.

- Bəs heç yanına getməmisdiz?

- Xeyr, oğlum əsgərlikdəydi, dustaq deyildi ki, görüşə gedib, yemək-içmək aparım. Amma bir-iki dəfə anası getmişdi, hərdən də telefonla danışardı.

Müstəntiq üzünü Anaya tutdu:

- Nə vaxt getmişdiz?

- Bir ay olar.

- Bir narahatçılığı yox idi, bir söz demədi?

- Üz-gözü əzilmişdi. Soruşduq, dedi ki, təlim vaxtı yıxılıb.

Böyük Qardaş söhbətə qarışdı:

- Mən o vaxt anama deməmişdim ki, ürəyi xarab olar. Yıxılmamışdı, möhkəm döymüşdülər. Nə qədər soruşdum ki, kimlər döyüb, demədi. Dedi, əsgərlikdi də, adam döyər də, döyülər də. Bilirsiz, qardaşım ipə-sapa yatan deyildi, başına güllə sıxsan da sözündən dönməzdi. Telefonda da deyirdi ki, bura hərbi hissə deyil, həsənsoxdu dəyirmanıdı. Mən də deyirdim, başını aşağı sal, hamı necə, sən də elə. Deyirdi mən hamı deyiləm. Siz də əsgər olmusuz, mən də. Komandirin razılığı olmadan qauptvaxtda adam döymək mümkündümü?! Qardaşım tez-tez yuxarılara şikayət yazırdı. Komandir onu bağışlayardımı? Bir öyrənin görün qardaşım altı-yeddi ayda neçə dəfə qauptvaxta salınıb, niyə salınıb? Qardaşımı qauptvaxtda kimlər döymüşdü? Qaravul var, qauptvaxtın rəisi var. Bir onları dindirin.

Bir anlıq Ananın gözünün qabağına gəldi oğlunu necə döyürlər, yerə yıxıb təpikləyirlər... Əslində gözünün qabağına gəlmədi, həmin anı yaşadı, özünü saxlaya bilməyib hıçqırdı.

Böyük Qardaş anasının başını sinəsinə sıxıb saçını öpdü, sığallamağa başladı.

Ata bir qədər soyuqqanlı idi:

- Yaxşı, bəsdi qonağın yanında gözüyün yaşın axıtdığın.

Ananın hıçqırtısı Müstəntiqi də təsirləndirmişdi:

- Üzr istəyirəm, mən sizin yaranızı qopartmaq istəmirdim. Amma mən o sualları verməyə borcluyam. Bunları öyrənmədən həqiqəti üzə çıxara bilmərəm.

Ata:

- Rəis, kimə lazımdı sənin həqiqətin. Tutalım, həqiqəti üzə çıxardın, nə dəyişəcək, ölənlər diriləcək?

- Ağsaqqal, təbii ki, ölənlər dirilməyəcək. Amma, əvvələ insanlar həqiqəti biləcək, ikincisi də, sizə söz verirəm, həqiqəti üzə çıxara bilsəm, kimliyindən asılı olmayaraq hər kəs öz cəzasını alacaq. Əgər sizin oğlunuzu kim isə bu cinayətə təhrik edibsə, ya buna ciddi səbəblər olubsa, hüquqda belə şeylər var, oğlunuz affekt vəziyyətdə belə bir cinayətə əl atıbsa, bu onun cinayətini yüngülləşdirir.

Ata:

- Oğlumu bundan sonra əfv edəcəklər, yoxsa güllələyəcəklər?

- Əlbəttə yox. Amma insanlar əsil həqiqəti öyrənəcək, siz də bu ağır töhmətin altından çıxacaqsınız. Bu cinayətdə əli olanlar da layiqli cəzalarını alacaq.

Ata:

- Ay xanım, dur yemək hazırla, qonaq da acdı, uzaq yol gəlib.

Müstəntiq yeməyə razı olmadı:

- Yox, sağ olun, yemək istəmirəm, amma bir stəkan çay pis olmaz.

Xudahafizləşib həyətdən çıxanda Müstəntiq çox əminliklə dedi:

- Sizə söz verirəm ki, bu cinayətin üstünü açacam.

Ata:

- Nə deyirəm ay rəis, təki sən deyən olsun.

Ana isə dedi:

- Allah köməyin olsun, oğul! Mən də hər gün sənə dua edəcəm!

***

- Ay kişi, bu qızdan gözüm su içmir, o gədə öləndən, özünə gələ bilmir. Az qala bütün kənd danışır ki, hər gün qəbrin üstünə gedir.

- Kənd qələt eləyir. Uşaqdı də, bir yerdə böyüyüblər, bir yerdə oxuyublar, bir-birlərini seviblər. Adam bir şey itirəndə bir həftə özünə gələ bilmir. İşin olmasın. Torpağın üzü bərkdi bir az keçəndən sonra, özünə gələcək.

Amma ərinin sözləri qadını toxtatmadı:

- Mən sənə deyirəm qız xoşuma gəlmir. Mən anayam, kor deyiləm ha, görürəm də. Bir çağır söhbət elə.

- Demirsən anasan, özün söhbət elə də.

- Mən söhbət eləmişəm. Mən ayrı, sən ayrı. Bir də o zəhrimar tüfəngi ordan götür. Neçə dəfə görmüşəm ki, silib təmizləyir.

-Babasının tüfəngidi də, silib təmizləyir, qoy silib təmizləsin.

***

Akademik həyatında ilk dəfə idi kiminsə önündə diz çökürdü, kimə isə dil açıb yalvarırdı. Onu güllələsəydilər də, şaqqalasaydılar da heç kimin, hətta Fironun da önündə diz çöküb yalvarmazdı. Ölmək onun üçün dəhşətli bir şey deyildi, bir gün doğulan bir gün də... beş il tez, on beş il gec heç nəyi dəyişmirdi. Şirəli Müslümov 167 il yaşamışdı, Cəmil Əhmədov 18, ikisi də çoxdan torpağa qarışıb gülə-çiçəyə çevrilib yenidən doğulmuşdular, yenidən saralıbsolub torpaqlaşmışdılar. Biri cəmi 18 ilə adını tarixə millətin qəhrəmanı kimi yazdırmışdı, biri 167 il yaşayıb adını tarixə çox yaşayan kimi. Onun fikrincə, uzun ömür yaşamaq elə də böyük xoşbəxtlik deyildi - sənin gözləriyin qarşısında övladların, nəvələrin, hətta nəticələrin ölür, sən isə yaşayırsan. Tanrı sevmədiyi insana bundan da artıq nə cəza verə bilər. Hüqonun bir fikri çox xoşuma gəlirdi: "Allahlar tərəfindən sevilənlər cavan ölürlər". Mənasız insanların sevgisi ilə çox yaşamaqdansa Tanrının sevimlisinə çevrilib cavan ölməyi üstün tutan tək-tək insanlardan idi.

İndi onu öldürsəydilər elə də böyük bir faciə deyildi. O indi ölmək istəyirdi, amma alçaldılıb və təhqir olunub yaşamaq istəmirdi. İndi bir gözqırpımı ömründə hansı günahı işləmişdi ki, Tanrı onu belə işgəncəyə, əzaba düçar edirdi.

Dünyada Tanrının hələ də varlığına, insanlığın hələ də yaşadığına inandığı üçün yalvarırdı. Yalvarırdı ki, bəlkə bu şeytan övladları eşitməsə də Tanrı eşitsin:

- Yalvarıram sizə! Sizi and verirəm Allaha, peyğəmbərə, məni öldürün! And olsun Allaha sizi bağışlayaram. Amma məni təhqir eləməyin!

Amma bu şeytan övladlarının nə Tanrıları vardı, nə də peyğəmbərləri. Onların Tanrıları da, peyğəmbərləri də Polkovnik idi. Və onlar öz tanrılarının, öz peyğəmbərlərinin əmrini yerinə yetirirdilər.

- Ə, biz qardaşıq! Bir qazandan yemək yeyirik, bir təhnənin çörəyini kəsirik. Allaha, peyğəmbərə hörmət eləmirsiz, çörəyə hörmət eləyin. "Quran"dan qorxmursuz, çörəkdən qorxun.

Amma, nə "Quran", nə çörək...

Üç nəfər əl-ayağını tutmuşdu və ona diz çökdürmüşdü. Qarşısındakı isə şalvarının qabağını açdı və çox soyuqqanlılıqla onun üstünə işədi. İşiyə-işiyə də bütün bunları telefonla çəkirdi...

- Əgər bir də başından böyük qələt eləsən, bunu internetə qoyacağıq!

Heç Tanrı da bircə dəfə çörək kəsmədiyi Şeytanı belə cəzalandırıb alçaltmamışdı ki, onun çörək kəsdiyi, eyni göyü, eyni yeri, eyni Vətəni paylaşdığı əsgər qardaşları onu belə cəzalandırırdılar, cəhənnəm əzabı bunun yanında toya getməliydi.

O, yalnız bircə bağıra bildi və bəlkə də dünya yarananda dünyanın özü belə bağırtı eşitməmişdi.

Amma ən dəhşətlisi o idi ki, bu bağırtını nə Tanrı eşitdi, nə onun çiyinlərində olan və çiyinlərində olmayan mələklər...

Ayıldı, amma xeyli vaxt özünə gələ bilmədi. Nə etməli? Qarşıda düşmən, onu öldürə biləcək, anasını, sevgilisini gözüyaşlı qoya biləcək bir düşmən. Arxada da onu təhqir edən, onu alçaldan, öldürüb daha xoşbəxt edə biləcəyi halda, üzünə işiyən əmisioğlu, dayısıoğlu, qardaşı...

Özünü öldürmək istədi, özünü öldürmək onun düşündüyü qədər də asan deyilmiş... Bəlkə cəbhə xəttini keçsin, onu vursunlar. Amma vurmaya da bilərdilər, əsir götürə bilərdilər...

Yaxınlıqda bir bulaq vardı, getdi bulağa yuyunmağa. Yox, yüz il yuyunsa da, Kürlə Arazın suyunu onun üstündən axıtsalar da üstündəki ləkə yuyulmayacaqdı, birdən-birə özü özündən iyrəndi... Və qəsdu...

**(Ardı növbəti sayımızda)**

ədalət.-2017.-15 fevral.-S.4.